# Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Uşaq Bağçalarının Tərbiyəçi-müəllim vəzifəsi üçün

## VƏZİFƏ TƏLİMATI

| | |
|---|---|
| **Vəzifənin adı:** | Tərbiyəçi-müəllim |
| **Qulluq funksiyaları:** | -Məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;<br>-Uşaqları fiziki və psixi zorakılığın bütün formalarından qoruyub, onları zərərli vərdişlərdən çəkindirmək;<br>-Dövlət təhsil standartlarının tələblərinə riayət etmək;<br>-Təhsil proqramlarının mənimsənilməsini təmin etmək;<br>-Uşaqların tərbiyəsini və hərtərəfli harmonik inkişafını təşkil etmək və həyata keçirmək, onları məktəb təliminə hazırlamaq;<br>-Qrupda hər bir uşağın səhhətinin vəziyyətini və onun möhkəmləndirilməsi işini izləmək, tibbi heyətin tələblərini yerinə yetirmək;<br>-Uşaqlara diqqətlə yanaşmaq, onların fərdi xüsusiyyətlərini öyrənmək;.<br>-Təlim-tərbiyə işini planlaşdırmaq;<br>-Uşaqlar üçün müəyyən edilmiş gün rejiminin yerinə yetirilməsini təmin etmək;<br>-Uşaqların səhhəti haqqında rəhbərliyə və tibbi heyətə müntəzəm olaraq məlumat vermək;<br>-Uşaqların ailədə tərbiyəsinə dair valideynlərlə iş aparmaq;<br>-Məktəbəqədər təhsil müəssisəsinin daxili intizam qaydalarına riayət etmək;<br>-Uşağın yaş səviyyəsini, potensial imkanlarını nəzərə almaqla, təlim metodlarını düzgün seçmək, uşağın meyl, maraq və qabiliyyətlərini aşkara çıxarıb inkişaf etdirmək |
| **Təhsilə dair tələblər:** | Məktəbəqədər təhsil |
| **Bilməlidir:** | Tədris metodikası və təlim strategiyaları, Məktəbqədər pedaqogika, Uşaq psixologiyası |